# LEYKEMİYA

BUNLARI BİLMƏK VACİBDİR!



Qanın bədxassəli xəstəliklərinə aid olub, sümük iliyində yetişməmiş qan hüceyrələrinin idarəsiz çoxalması nəticəsində əmələ gəlir.

Sümük iliyi sağlam leykositlər, eritrositlər və trombositlər yarada bilmir, nəticədə anemiyalar, infeksion fəsadlaşmalar və qanaxmalar meydana çıxır.

**ERKƏN DİAQNOZ QOYULDUĞU HALDA XƏSTƏLİYİN MÜALİCƏSİNİN EFFEKTİV OLMASI EHTİMALI BÖYÜKDÜR!**

# LEYKEMİYANIN ƏLAMƏTLƏRİ

- üz dərisinin solğunluğu iştahsızlıq
- uzun müddət davam edən hərarət
- təngnəfəslik
- uzun müddətli yorğunluq hissi və zəiflik
- sümük və əzələ ağrıları
- səbəbsiz çəki itkisi
- dərialtı qansızmalar
- burun, diş əti və damaqlarda qanaxmalar
- tez-tez kiçik infeksiyalar
- dalaq, qaraciyər və ya limfa düyünlərinin böyüməsi

**BU ƏLAMƏTLƏR SİZDƏ MÜŞAYİƏT OLUNURSA, MÜTLƏQ HƏKİMƏ MÜRACİƏT EDİN !**

## LEYKEMİYANIN YARANMA EHTİMALINI AZALTMAQ ÜÇÜN VACİBDİR:

- körpəni döşlə əmizdirmək
- uşaqlıq dövründə fiziki aktiv olmaq
- uşaqları sağlam, sabit mühitdə böyütmək
- hamiləlik dövründə fol turşusu qəbul etmək

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Vərəqə "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəaliyyət Planının 4.1. bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.